# Novruz bayramı rəssamlarımızın yaradıcılığında

**Xalqımızın mənəviyyatında və məişətində minilliklərlə yaşatdığı, böyük coşqu və şövqlə sevə-sevə qeyd etdiyi ən qədim bayramlardan biri Novruz bayramıdır.**

Məlum olduğu kimi, həyatın başlanğıcı qədim Şərq fəlsəfəsində dörd ünsürün vəhdəti şəklində qəbul edilir: od, su, hava, torpaq. Bahar bayramı həyatın yenidən yaranışı, doğuşu kimi təzahür olunur.

Azərbaycanın folklor, musiqi və təsviri sənət əsərlərində Novruz adət-ənənələri geniş və hərtərəfli şəkildə təzahürünü tapıb. Bayramın diqqəti cəlb edən, el dilindən və məişətindən süzülüb bu günümüzədək gələn səhnələri Azərbaycan rəssamlıq sənətində də sevilərək müraciət edilən və əks olunan ən maraqlı motivlərdəndir.

Azərbaycan təsviri sənət tarixində Novruz bayramı və onun rəsssamlıq sənətimizdə əksi ayrıca bir səhifəni təşkil edir. Sovetlər dövründə bu bayramın qeyd edilməsinə rəsmi qadağalar olmuşdur, bununla belə, xalqımız həmişə sevə-sevə bu bayramı qeyd edərək, onun ənənələrini yaşatmış və nəsildən-nəslə ötürmüşdür.

Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan, Novruz bayramı mövzusunu əks etdirən əsərlər sırasında rəngkarlıq ustaları - Səttar Bəhlulzadənin "Bahar nəğməsi", "Xonça" (Etüd) "Torpağın arzusu", "Azərbaycan nağılı", "Xalqımızın yazı", "Nərgiz gülləri", "Yaşıl xalça", Xalidə Səfərovanın "Novruz", "Çovkan", "Çovkançılar", Elbəy Rzaquliyevin "Novruz bayramı", Həsən Haqverdiyevin "Bahar", Sadıq Şərifzadənin "Bahar bayramı. Novruz", qrafika rəssamları - Əzim Əzimzadənin "Tonqal üstündən tullanmaq", "Kos-kosa", Ələkbər Rzaquliyevin "Gəlinə hədiyyə ilə" ("Köhnə Bakı" silsiləsindən), "Şirni" ("Köhnə Bakı" silsiləsindən), Elmira Şahtaxtinskayanın "Novruz bayramı ərəfəsində", "Qutablar", Altay Hacıyevin "Yaz" ("Azərbaycan, doğma mahnılar" silsiləsindən), "Qədim milli məişət əşyaları", Arif Ələsgərovun "Novruz", "Kəndirbazlar" və başqalarını xüsusi qeyd edə bilərik.

Yuxarıda adları sadalanan rəssamlar Azərbaycan təsviri sənət tarixində öz sözlərini demiş və yaradıcılığı ilə silinməz izlər qoymuş görkəmli sənətkarlardır.

Bənzərsiz və zəngin yaradıcılıq dünyasına malik, əfsanəvi fırça ustası Səttar Bəhlulzadənin yaratmış olduğu tablolarında milli mədəniyyətimizin hansısa bir elementini və ya rəmzi ifadəsini görməmək və duymamaq mümkünsüzdür. Rəssam "Azərbaycan nağılı" adlı əsərində sanki Azərbaycan dünyasını tabloda əks etdirmişdir. Kompozisiyada əzəmətli dağlar fonunda, göl kənarında əks etdirilən dairəvi iri xonçalar və xonçaların içərisindəki Azərbaycan nemətləri, çiçəkləmiş ağaclar, gözəl güllər o qədər ustalıqla və əsl sənət coşqusu ilə təsvir edilib ki, bu sehrin ağuşuna düşməmək, bol estetik zövq almamaq mümkün deyil. Bu əsərə tamaşa etməkdən doymaq olmur. Rəssam tablonun yuxarı hissəsində dalğalanan kəlağayını təsvir etməklə bir növ yaradıcılıq işinə möhür basmışdır, yəni əlavə heç bir şərhə ehtiyac duymadan tablodan Azərbaycan dünyasını asanlıqla sezmək olar. Sadalanan xüsusiyyətləri rəssamın Novruzla bağlı digər əsərlərinə də şamil etmək mümkündür.







Xalidə Səfərovanın "Novruz" adlı əsəri olduqca diqqətçəkəndir. Kompozisiyada mərkəzdə Novruz bayramının ləziz nemətləri ilə bəzədilmiş xonça, xonçanın əhatəsində isə əllərində Bahar bayramının rəmzi olan səməni tutmuş xanımlar və xoruz döyüşdürən milli geyimli gənc oğlanlar təsvir edilib.

Elbəy Rzaquliyevin "Novruz bayramı" əsərində isə Xəzər dənizinin fonunda, İçərişəhərdə şənliklərin bədii təsviri əks olunub. Tabloda oyun göstərən kəndirbaz və milli geyimli rəqqasələr əsl bayram əhvali-ruhiyyəsini təcəssüm etdirir. Sağ tərəfində isə xalça nümunəsinin təsviri əsərin bədii ifadəliliyini daha da artırır.

Azərbaycan rəssamlıq sənətinin formalaşmasında və inkişafında əvəzsiz xidmətlər göstərmiş, XX əsr rəssamlıq sənətimizin mahir ustası Əzim Əzimzadənin yaradıcılığı və sənət nümunələri özünün bədii ifadə həlli və estetik məzmunu ilə yanaşı, həm də etnoqrafik çalarların əksi və tərənnümü baxımından da olduqca əhəmiyyətli yer tutur. Rəssamın Novruz bayramının xüsusiyyətlərini özündə dolğunluğu ilə yaşadan "Tonqal üstündən tullanmaq" və "Kos-kosa" adlı əsərləri diqqətçəkəndir.

Tanınmış rəssam Ələkbər Rzaquliyev öz yaradıcılığında xalqımızın məişət və etnoqrafik ənənələrini böyük ustalıqla tərənnüm edib. Rəssamın "Köhnə Bakı" silsiləsinə aid əsərlərinin hər biri bədii estetik məziyyətləri ilə yanaşı, həmçinin özünəməxsus dəqiq işlənilmə xüsusiyyətlərilə də seçilir. "Gəlinə hədiyyə ilə" adlı əsərində rəssam, Novruz bayramı ərəfəsində bayram şirniyyatları ilə dolu xonçayla qız evinə bayram görüşünə tələsən ailənin bədii görüntüsü təsvir olunub. İçərişəhərin fonunda milli geyimli ailə üzvlərinin fərdi xarakterik xüsusiyyətləri incə cizgi, ştrix elementləri ilə ustalıqla əks etdirilib.

Elmira Şahtaxtinskaya "Novruz bayramı ərəfəsində", "Qutablar" adlı əsərlərini yaradarkən Azərbaycan xalqının qədim adət-ənənələrinə yaradıcı şəkildə müraciət edib.

Sadalanan əsərlər Azərbaycan rəssamlarının Novruz bayramına həsr olunmuş bədii yaradıcılıq işlərinin kiçik bir qismini təşkil edir. Azərbaycan xalqının tarixində və məişətində geniş şəkildə kök salmış və hər il dövlət səviyyəsində qeyd edilən bu bayram və onun gözəl xüsusiyyətləri, həmişə rəssamlarımızın ilham qaynağı olacaq və onların yaradıcılığında öz geniş təzahürünü tapacaqdır.

*Əsəd QULİYEV,*
*Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünas*

Azərbaycan.- 2025.- 13 mart (№ 55).- S.10.